# *"Sinxua" agentliyi:* "Azərbaycan Çinlə əlaqələrin inkişafına böyük əhəmiyyət verir"

Çinin rəsmi xəbər agentliyi "Sinxua" Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Azərbaycan-Çin münasibətləri ilə bağlı açıqlaması əsasında xəbər hazırlayıb.

AZƏRTAC "Sinxua" agentliyinə istinadla xəbər verir ki, "Azərbaycan rəsmisi: Azərbaycan Çinlə əlaqələrin inkişafına böyük əhəmiyyət verir" sərlövhəli materialda iki ölkənin münasibətlərinin strateji


新华网 > 新闻 > 正文

2024
09/12
16:27:20

阿官员：阿塞拜疆重视发展同中国关系

tərəfdaşlıq səviyyəsinə qaldırıldığı, əməkdaşlığının davamlı şəkildə inkişaf etdirildiyi bildirilib. Prezidentin köməkçisi Hikmət Hacıyev Çinin əsl dost olduğunu, onun inkişafının, xüsusilə də texnoloji inkişafının təkcə özünə deyil, dünyaya, o cümlədən Qlobal Cənuba böyük töhfələr verdiyini vurğulayıb. Əlavə edib ki, böyük tarixi olan Çin mədəniyyətini öyrənməyə dəyər.

Hikmət Hacıyev bu ilin iyulunda Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Azərbaycanın Çin vətəndaşları üçün birtərəfli qaydada vizasız səfər siyasətinin tətbiqinə başladığını rəsmən bəyan etdiyini bildirib, daha çox Çin vətəndaşının ölkəmizə səyahət etməsinin arzu olunduğunu deyib.

Azərbaycan.- 2024.- 14 sentyabr (№200).- S.2.